**Respublika.** - 2024.- 23 noyabr. - № 258. - S. 6.

# İqlim dəyişmələrinin insan sağlamlığına təsiri və kiçik ada dövlətlərinin qarşılaşdığı problemlər

**Ramidə Yaqubqızı**

**İnsan immun çatışmazlığı virusu qlobal ictimai sağlamlıq üçün əsas problemlərdən biri olaraq qalır. Hər il bir milyondan çox insan HİV-ə (yoluxucu xəstəliklərə) yoluxur və 600 mindən çoxu isə HİV ilə əlaqəli xəstəliklər səbəbindən həyatını itirir. Bu xəstəliyin ən böyük yükü, əsasən Afrika regionunda olan aşağı və orta gəlirli ölkələrin üzərinə düşür.**

Bu barədə səhiyyə naziri Teymur Musayev Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında BMT-nin HİV/QİÇS üzrə Proqramının (UNAIDS) "İİV və İqlim Dəyişmələri üzrə Çərçivə Sənədi"nin təqdimatı mərasimində bildirib. O deyib: "İqlim dəyişmələri ilə bağlı təbii fəlakətlər xəstəliklərin yayılmasına, ərzaq təhlükəsizliyinə və səhiyyə infrastrukturunun zədələnməsinə səbəb olur. Səhiyyə xidmətinin pozulması HİV-in müalicəsi, qarşısının alınması və psixi sağlamlıq xidmətlərinə çıxışı daha da azaldır və nəticədə həssas qruplar arasında xəstələnmə və ölüm hallarının artması qeydə alınır. Bu mürəkkəb təsirlər HİV nisbətlərinin artmasına kömək edir. Bu gün dünya Bakıda, COP29-da birləşib. İqlim dəyişmələrinin sağlamlığa təsirinin ən kritik mövzu olduğundan tez bir zamanda bu istiqamətdə əməli fəaliyyət göstərmək vacibdir. Nə qədər tez hərəkət etsək, bir o qədər tez uğur qazanacağıq".

İqlim dəyişmələri, ekoloji tarazlığın pozulması insanların sağlamlığına və həyat tərzinə güclü təsir göstərən amillərdəndir. Xüsusən körpələrin, uşaqların və yeniyetmələrin fiziki və əqli cəhətdən sağlam inkişafında yaşadığımız təbii mühit amili mühüm əhəmiyyət kəsb edir. Dəhşətli meteoroloji hadisələr, ərzaq və su ehtiyatlarına təsir edən qeyri-sabit iqlim şəraiti, infeksion xəstəliklərin yayılması, ekosistemlərin dəyişməsi - bütün bunlar qlobal istiləşmədən irəli gəlir və sağlamlıq üçün təhlükə yaradır. Bu səbəbdən də sadalananların hamısı insan sağlamlığına güclü təsir göstərməkdədir.

Hazırda dünyada milyonlarla insan susuzluqdan əziyyət çəkir, bir o qədər də qida çatışmazlığından dünyasını dəyişir. Keyfiyyətsiz və çirkli su isə gigiyena və sağlamlıq üçün təhlükəlidir. Əlbəttə, bütün bunları yaradan başlıca amil isə iqlim dəyişmələrinin fəsadlarıdır. Çünki temperatur yüksəldikcə, kənd təsərrüfatı məhsuldarlığı azalır. Uzun sürən quraqlıqlar, daşqınlar və dəyişkən xarakter alan yağıntılar dünyanın müxtəlif yerlərində məhsul çatışmazlığına səbəb olur. Bir çox regionlar uzun sürən quraqlıq və buzlaqların əriməsi səbəbindən şirin su ehtiyatlarının azalması ilə üzləşir. Baş verən iqlim dəyişmələri nəticəsində sel, quraqlıq, tufan kimi ekstremal hava hadisələrinin tezliyi və şiddəti artır. Bu iqlim hadisələri dolayısı ilə havanın keyfiyyətinə, suyun çirklənməsinə, torpaqdan istifadə imkanlarına təsir edir. Ekoloji problemlər zamanı yaranmış quraqlıq nəticəsində meşə və yaşıllıq zonaları məhv olur. Məhsuldarlıq aşağı düşür, bu da ərzaq qıtlığına səbəb olur. Sözsüz ki, bunlar da birbaşa insanların sosial həyatına mənfi təsir göstərir. Ətraf mühitə buraxılan zərərli qazların udulması, sağlam ekoloji mühitin yaradılması və vəziyyətdən çıxış yolu kimi meşə və yaşıllıq ərazilərin genişləndirilməsi üçün ağacəkmə aksiyaları həyata keçirilir. Azərbaycan da bu işdə öz aktivliyini nümayiş etdirir.

İqlim dəyişmələri ilə insanların sağlamlıq vəziyyətinin pisləşməsi arasında əlaqə bir çox komponentdən ibarətdir. Qalıq yanacaqların istifadəsi atmosferdə CO2 (həmçinin CH4, N2O) miqdarını artırır. Bu da öz növbəsində temperaturun və dəniz səviyyəsinin yüksəlməsinə gətirib çıxarır, nəticədə daşqınlara, quraqlığa səbəb olur. Təbiətdə baş verən anomaliyalar birbaşa insan sağlamlığına təsir edir və cəmiyyət ciddi problemlərlə qarşılaşır. Şirin su mənbələrində duzluluq artır, kol və meşə yanğınları geniş vüsət alır, ozon qatı zədələnir, içməli su qıtlığı yaranır, hava çirklənir, kənd təsərrüfatı və əkinçilikdə məhsuldarlıq azalır. Bütün bunların insan sağlamlığına zərərləri və xəstəliklərin yaranmasına zəmin yaradan nəticələri saymaqla bitmir. Bu xəstəliklər qeyri-mütənasib olaraq həssas qrup insanlara - uşaqlara, qocalara, hamilə qadınlara, əvvəldən xəstəliyi olan insanlara daha çox təsir göstərir.

Məsələn, 2021-2022-ci illərdə ekstremal iqlim hadisələri bütün qitələrdə dağıntılara səbəb oldu və COVID-19 pandemiyasının təsirləri ilə mübarizə aparan səhiyyə xidmətlərini daha çətin vəziyyətə saldı. Avstraliya, Braziliya, Çin, Qərbi Avropa, Malayziya, Pakistan, Cənubi Afrika və Cənubi Sudanda sel və daşqınlar, Kanada, ABŞ, Yunanıstan, Əlcəzair, İtaliya, İspaniya, Türkiyədə meşə yanğınları, Pakistan və Böyük Britaniya da daxil olmaqla bir çox ölkədə havanın temperaturu rekord həddə çatması dağıntılara, insan tələfatına və iqtisadi itkilərə səbəb oldu.

Qlobal istiləşmə və iqlim dəyişmələrindən ən çox əziyyət çəkən kiçik ada dövlətləri, Afrika qitəsi və digər Cənub yarımkürəsində yerləşən ölkələrdir. Yaranmış ekoloji problem istər iqtisadiyyat, sağlamlıq, istərsə də infrastruktur baxımından böyük çətinliklər yaradır. İqlim dəyişmələri və dəniz səviyyəsinin qalxması Sakit, Hind və Atlantik okeanlarına səpələnmiş kiçik ada dövlətlərinin inkişafı və yaşayışı üçün təhlükə yaradır. Beynəlxalq bazarlardan təcrid, məhdud resurslar, həddindən artıq əhali, tullantıların artması və sahillərin çirklənməsi bu ölkələrin iqtisadi inkişafı üçün ciddi problemlər yaratmaqla yanaşı, ada

Noyabrın 12-də Bakıda keçirilən COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətləri (SIDS) Sammiti dünya miqyasında iqlim dəyişmələri ilə mübarizə, ətraf mühitin qorunması və bu sahədə əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platforma oldu. Sammitdə kiçik ada dövlətlərinin qarşılaşdıqları ekoloji, sosial və iqtisadi çağırışlara diqqət çəkmək və bu ölkələrin beynəlxalq aləmdə daha çox dəstək alması üçün yollar axtarıldı. Prezident İlham Əliyev sammitin açılışında çıxış edərək iqlim dəyişmələri ilə mübarizənin yalnız inkişaf etmiş ölkələrin məsuliyyəti olmadığını, həm də bütün dövlətlərin bu qlobal məsələyə qarşı ortaq yanaşma nümayiş etdirməli olduğunu vurğuladı. Kiçik ada dövlətləri dünya əhalisinin kiçik bir hissəsini təşkil etsə də, iqlim dəyişmələrinin təsirlərini ən ağır şəkildə hiss edən ölkələrdir. Azərbaycan bu dövlətlərin yanında olmağa və onlarla daha sıx əməkdaşlıq etməyə hazır olduğunu bildirdi.

Bu baxımdan, COP29 kiçik ada dövlətlərinin səslərinin eşidilməsi üçün mühüm beynəlxalq platforma oldu. Azərbaycan son illər iqlim dəyişmələrinin qarşısını almaq və kiçik ada dövlətlərinə dəstək olmaq üçün müxtəlif təşəbbüslərlə çıxış edib. Sammitdə kiçik ada dövlətlərinin problemləri Konvensiyanın bütün tərəflərinin iştirakı ilə müzakirə edilirdi. Bakının təşəbbüsü ilə kiçik ada dövlətlərinin səslərini gücləndirmək və həmin ölkələrə konkret dəstək vermək üçün bir çox beynəlxalq əməkdaşlıq layihələri təşviq edilir. Bu tədbir vasitəsilə Azərbaycan qlobal ekoloji liderlik rolunu bir daha göstərdi və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin hüquqlarının müdafiəsi və onlara dəstək verilməsi məsələsində dünya ictimaiyyətinə vacib çağırış etdi.